**TEXNİKİ XİDMƏT GÖSTƏRİLMƏSİ BARƏDƏ**

**M Ü Q A V İ L Ə № _______**

Bakı şəhəri Tarix: ____________

Bir tərəfdən, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq təsis edilmiş, öz Nizamnaməsi əsasında fəaliyyət göstərən, ______________ hüquqi ünvanında qeydiyyatda olan və ______________ şəxsində təmsil olunan **“________________” MMC/QSC/ASC** (bundan sonra “**Sifarişçi**” adlandırılacaq) və digər tərəfdən, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq təsis edilmiş, öz Nizamnaməsi əsasında fəaliyyət göstərən, ______________ hüquqi ünvanında qeydiyyatda olan və ______________ şəxsində təmsil olunan **“________________” MMC/QSC/ASC** (bundan sonra “**İcraçı**” adlandırılacaq) aşağıdakı şərtlər əsasında bu xidmət müqaviləsini (bundan sonra “**Müqavilə**” alandırılacaq) bağladılar:

Sifarişçi və İcraçı ayrılıqda “**Tərəf**”, birlikdə isə “**Tərəflər**” adlandırılacaq.

**1. Müqavilənin predmeti**

1.1 İcraçı Sifarişçinin istifadəsində olan avadanlıqlarda baş verən nasazlıqların aradan qaldırılması ilə bağlı bu Müqavilənin əlavələrində göstərilmiş texniki xidmətləri Sifarişçinin sifarişinə uyğun olaraq görməyi, Sifarişçi isə bunun əvəzində xidmət haqqını ödəməyi öhdəsinə götürür.

1.2 Xidmət növlərinin təsviri Müqavilənin ayrılmaz hissəsi olan Əlavələrdə göstərilib. Hazırki Əlavələr hər iki Tərəfin onu imzaladığı andan bu Müqavilənin ayrılmaz hissəsinə çevrilir. Gələcəkdə tərəflərin qarşılıqlı razılığı ilə müqaviləyə yeni əlavələr edilə bilər.

**2. Tərəflərin hüquq və vəzifələri**

2.1. İcraçının hüquqları:
- göstərilmiş xidmətlərə görə Sifarişçidən ödənilməli olan məbləği tələb etmək;
- göstərilmiş xidmətdə qüsur və nasazlıqların bu Müqavilədə müəyyən edilmiş zəmanət müddətindən gec aşkar olunması halında öz hesabına aradan qaldırılmasından imtina etmək.

2.2. İcraçının vəzifələri:
- Sifarişçinin sorğularına əsasən onu bu Müqavilənin icrası üçün həyata keçirilən hərəkətlər haqqında məlumatlandırmaq;
- təmirə təqdim edilmiş avadanlıqların təmir müddətində qorunub saxlanmasını təmin etmək;
- xidmətlərin keyfiyyətinə nəzarət etmək;

Doc-Shop

- texniki xidmət işinə və dəyişdirilmiş yeni ehtiyyat hissələrinin keyfiyyətinə 6 (altı) ay müddət ərzində zəmanət vermək;
- göstərilən xidmətlərdə hər hansı qüsur və ya çatışmazlıq aşkar edildikdə onların öz hesabına aradan qaldırılmasını təmin etmək, bu qüsurun nəticəsində Sifarişçiyə dəymiş zərərin əvəzini ödəmək və üçüncü şəxslər qarşısında məsuliyyət daşımaq;
- İcraçı yalnız Sifarişçinin sifarişində konkret göstərilən iş və xidmətləri yerinə yetirir.

2.3. Sifarişçinin hüquqları:

- Müqavilə üzrə xidmətin göstərilməsinə nümayəndəsi vasitəsilə nəzarət etmək;
- xidmətin nəticəsində bu Müqavilə ilə müəyyən edilmiş zəmanət müddəti ərzində hər hansı qüsur və ya çatışmazlıq aşkar edildikdə, belə qüsurun aradan qaldırılmasını, Sifarişçiyə dəymiş zərərin əvəzini ödəməyi və üçüncü şəxslər qarşısında məsuliyyət daşımasını İcraçıdan tələb etmək;

2.4. Sifarişçinin vəzifələri:

- Bu Müqavilənin şərtlərinə müvafiq olan məbləğdə və müddətdə yerinə yetirilmiş işlərə görə xidmət haqqını ödəmək;
- stasionar müayinə və uzunmüddətli təmir işi tələb edən nasazlıqlar yarandığı halda avadanlığın İcraçının servisinə gətirilməsi və təmirdən sonra geri aparılması ilə bağlı nəqliyyat, sığorta və digər xərcləri qarşılamaq;

**3. Xidmətlərin dəyəri və ödənilmə qaydası**

3.1. İcraçı tərəfindən göstərilən xidmətlərin dəyəri (bundan sonra – "Xidmət haqq") bu Müqavilənin Tərəflərin təsdiq etdiyi Əlavələrində hər xidmətə görə müəyyən edilən məbləğlərə əsasən müəyyən edilir və Sifarişçi tərəfindən ödənilir.
3.2. Xidmət haqqına Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hər hansı bir vergi və ya bank xərcləri daxil edilmir.
3.3. Bu Müqavilə üzrə hesablaşmalar bank hesabına köçürmə yolu ilə həyata keçirilir.
3.4. Hesablaşma(lar) Azərbaycan manatı (AZN) ilə aparılır.
3.5. Tərəflərin hər biri xidmət həyata keçirdiyi bankda bütün bank komissiyaları və digər ödənişlər üzrə xərcləri müstəqil şəkildə ödəyir.

**4. Müqavilənin müddəti və xitamı**

4.1. Bu Müqavilə imzalandığı gündən qüvvəyə minir və ___ il/ay müddətində qüvvədədir.
4.2. Müqavilənin müddətinin qurtarmasına 15 (on beş) təqvim günü qalmış onun ləğv edilməsinə və ya şərtlərinin dəyişdirilməsinə təşəbbüs göstərilmədiyi halda, Müqavilə növbəti 1 (bir) il müddətinə uzadılmış hesab olunur.
4.3. Tərəflərdən hər hansı biri 15 (on beş) təqvim günü əvvəldən yazılı surətdə xəbərdarlıq etməklə Müqaviləyə xitam verə bilər.

Doc-Shop

4.4. Tərəflər aşağıdakı hallar baş verdikdə Müqavilənin yerinə yetirilməsindən (tamamilə və ya qismən) birtərəfli qaydada imtina edilməsinə razılaşırlar:

- xidmətin İcraçı tərəfindən təkrar (iki və ya daha çox) qeyri-kafi keyfiyyətdə göstərilməsi;
- İcraçının xidməti göstərməsində sistematik (iki və ya daha çox) gecikməsi.

**5. Tərəflərin məsuliyyəti**

5.1. Tərəflər bu Müqavilə üzrə öhdəlikləri tam və ya qismən yerinə yetirmədikdə Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.
5.2. İcraçı bu Müqavilə üzrə göstərdiyi texniki xidmət nəticəsində Sifarişçinin avadanlıqlarında yaranmış qüsur və nasazlıqları, aşkar olunduğu andan etibarən ən gec 3 (üç) təqvim günü ərzində öz hesabına aradan qaldırır.
5.3. Müqavilə üzrə göstərilən xidmətdə qüsur aşkar olunduqda Sifarişçi:
5.3.1. Qüsur xidmətin göstərilməsi zamanı aşkar edildiyi halda dərhal bu barədə İcraçını yazılı və ya şifahi qaydada məlumatlandırır və əgər mümkündürsə, qüsurun dərhal aradan qaldırılmasını tələb edir;
5.3.2. Qüsur aşkar edildikdə, bu barədə qüsur aktını tərtib edib İcraçıya yazılı müraciət (pretenziya) formasında təqdim edir. İcraçı belə pretenziyaya ən gec 3 (üç) iş günü ərzində pretenziyanı qəbul edib-etmədiyi barədə yazılı bildiriş göndərir. İstənilən halda, həmin müddət ərzində İcraçının belə yazılı bildirişi göndərməməsi pretenziyanın qəbul edildiyini bildirir. Pretenziya qəbul edildiyi andan növbəti 3 (üç) iş günü ərzində isə qüsur aktında qeyd olunan qüsur və ya çatışmazlıq İcraçı tərəfindən aradan qaldırılır.
5.4. Müqavilə üzrə xidmət haqqının dəyərinin ödənilməsi gecikdirildikdə Sifarişçi hər gecikdirilən gün üçün gecikdirilən məbləğin 0,1 %-i məbləğində, lakin belə məbləğin 10 %-dən çox olmamaqla İcraçıya dəbbə pulu ödəyir.
5.5. Müqavilə üzrə xidmətin göstərilməsinin gecikdirilməsinə görə İcraçı Sifarişçiyə hər gecikdirilən gün üçün həmin xidmətə görə ödənilməli olan xidmət haqqının 0,1%-i məbləğində, lakin belə məbləğin 10 %-dən çox olmamaqla dəbbə pulu ödəyir.

**6. Fors-major**

6.1. Bu Müqavilə üzrə öhdəliklərin icra edilməsinə, Müqavilə bağlanandan sonra, Tərəflərdən heç birinin qabaqcadan bilmədiyi və qarşısının alınması mümkün olmayan fövqəladə xarakterli hadisələr nəticəsində yaranmış qarşısıalınmaz qüvvə (Fors-major) səbəb olmuşdursa, Tərəflər Müqavilə öhdəliklərinin tam və ya qismən icra edilməməsinə görə məsuliyyət daşımırlar.
6.2. Fors-major hallar baş verdiyi zaman bu Müqavilə üzrə öhdəliklərin icra müddəti, bu halların davam etdiyi müddətdə müvafiq olaraq uzadılır.
6.3. Fors-major hallar bir aydan artıq davam etdikdə və onların nə zaman ləğv ediləcəyi məlum olmadıqda, Tərəflərdən hər biri bu Müqaviləyə xitam verə bilər.

DocShop

6.4. Qarşısı alınmaz qüvvəyə hər hansı müflisləşmə, təşkilati-hüquqi formanın dəyişilməsi və hər hansı tərəfin etinasızlığından irəli gələn sair hallar aid edilmir.

**7. Mübahisələrin həlli**

7.1. Hazırki Müqavilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir və təfsir olunur.
7.2. Tərəflər bu Müqavilədən irəli gələn bütün mübahisəli məsələləri danışıqlar yolu ilə həll etməyə çalışacaqlar. Danışıqlar nəticə vermədikdə mübahisə Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq aidiyyatı məhkəmələrdə həll edilir.

**8. Məxfilik**

8.1. Tərəflər Müqavilənin qüvvədə olma müddəti ərzində və onun başa çatmasından sonra digər Tərəf barəsində əldə etdiyi konfidensial (məxfi) məlumatı, qarşı Tərəfin buna yazılı razılığı olmadan və ya qanunvericiliklə nəzərdə tutulan hallar istisna olmaqla, üçüncü tərəfə təqdim etməməli və ya onu yaymamalıdır, həmçinin digər üsulla bu məlumatlardan istifadə etməməlidir.
8.2. Mövcud müqavilənin məqsədlərinə görə konfidensial (məxfi) məlumat dedikdə, bir Tərəfin digər Tərəfə Müqavilənin yerinə yetirilməsi çərçivəsində vermiş olduğu yazılı və ya elektron daşıyıcıda əks olunan məlumat, o cümlədən Tərəflərin qeydiyyat məlumatları, Müqavilənin bağlanmasından öncə və sonra elektron poçt və digər üsullarla həyata keçirilmiş yazışmalardan və müzakirələrdən əldə edilmiş məlumatlar, Tərəflərin bu Müqavilə əsasında qarşılıqlı razılaşdırdığı hər hansı güzəştli satış və ya güzəştli ödəniş şərtləri barədə məlumat nəzərdə tutulur (hamıya bəlli olan məlumatlar və təqdim edilməsi qanunla nəzərdə tutulmuş məlumatlar istisna olunur).
8.3. Tərəflər öz işçilərinə, müştərilərinə, təchizatçılarına və bu Müqavilənin icrası ilə əlaqədar hər hansı məlumatları əldə etmiş digər hüquqi və ya fiziki şəxslərə bu maddədə nəzərdə tutulan konfidensiallıq (məxfilik) öhdəliklərini qəbul etdirməlidirlər.

**9. Digər müddəalar**

9.1. Bu müqaviləyə əlavə və dəyişikliklər müqavilənin tərkib hissəsidir və yalnız yazılı formada tərtib edildikdə və tərəflər arasında imzalanıb möhürləndikdən sonra qüvvədədir.
9.2. Bu Müqaviləyə əlavələr Müqavilənin tərkib hissəsidir.
9.3. Tərəflərin heç biri digər tərəfin qabaqcadan yazılı razılığı olmadan hazırkı Müqavilə üzrə hüquq və öhdəliklərini hər hansı üçüncü tərəfə ötürə bilməz
9.4. Müqaviləyə xitam verilməsi Tərəfləri Müqavilə üzrə icra edilməmiş və ya lazımınca icra olunmamış öhdəliklərinin icrasından azad etmir.
9.5. Hər hansı səbəbdən Müqaviləyə xitam verildiyi halda, Tərəflər qarşılıqlı hesablaşma aparmağı qəbul edirlər.

Doc-Shop

9.6. Tərəflərin bir-birinə olan rəsmi e-mail üzrə elektron yazışmaları, kağız üzərində bildirişləri, xəbərdarlıqları və ya digər sənədləri rəsmi sənəd hesab olunur və Müqavilədə göstərilmiş ünvanlara göndərilir və hər hansı mübahisələr yarandıqda sübut kimi istifadə edilə bilər.
9.7. Müqavilə üzrə bir Tərəfin digər tərəfə ünvanladığı yazılı müraciət və ya tələb müvafiq Tərəfin ünvanına səhv göndərildiyi hal istisna olmaqla, göndərildiyi tarixdən etibarən ən gec 5 (beş) iş günü ərzində göndərilən Tərəfdən alınmış hesab olunacaqdır.
9.8. Hər hansı səbəbə görə bu Müqavilənin istənilən şərti öz hüquqi qüvvəsini itirsə və ya etibarsız hesab olunsa, bu Müqavilənin başqa şərtlərinə təsir etmir.
9.9. Bu müqavilə eyni hüquqi qüvvəyə malik 2 (iki) nüsxədə tərtib olunub və Tərəflərin hər birində 1 (bir) nüsxə saxlanılır.

**10.Tərəflərin rekvizitləri**

| ***"Sifarişçi"*** | ***"İcraçı"*** |
|---|---|
| "_____" MMC/ASC/QSC<br><br>VÖEN:<br>Bankın adı:<br>VÖEN (bank):<br>Kod:<br>M/h:<br>H/h:<br>S.W.I.F.T BİK: | "_____" MMC/ASC/QSC<br><br>VÖEN:<br>Bank:<br>VÖEN (bank):<br>Kod:<br>M/h:<br>H/h:<br>SWIFT: |

_________________/Direktor/_________ _____________________Direktor/___________

Doc-shop

**Əlavə № 1**

**İş növlərinin təsviri və onların qiyməti**

| № | Marka | Mal və xidmətin adı | Miqdar | Vahid qiyməti (AZN) | Toplam qiymət (AZN) |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |
| 3 | | | | | |
| 4 | | | | | |
| | | | | **Cəmi:** | |

1. İcraçı tərəfindən yuxarıda qeyd olunan xidmətlərin göstərilməsi tamamlandıqdan sonra İcraçı tərəfindən Sifarişçiyə hesab-faktura göndərilir.
2. Hesab-faktura Sifarişçi tərəfindən qəbul edildikdən sonra ödəniş İcraçının bank hesabına 5 (beş) iş günü ərzində ödəniləcəkdir.

**Sifarişçi:** **İcraçı:**

Direktor Direktor

_________________/ ____________ _________________/ ____________

Doc-Shop